**2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 noyabr 2015-ci il tarixli 187 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Bəybala Əlibala oğlu Əbil 20 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü 41 saylı Sumqayıt birinci seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, dairə seçki komissiyasının 16 noyabr 2015-ci il tarixli 33/98 saylı qərarının ləğv edilməsini və həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, 41 saylı Sumqayıt birinci seçki dairəsi üzrə deputatlığa namizədliyi "AZADLIQ-2015" siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş və qeydə alınmış Ə.H.Abdullayev səsvermə günü həmin seçki dairəsinin bəzi seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız sayılması barədə 2015-ci il noyabrın 6-da poçt vasitəsilə dairə seçki komissiyasına yazılı müraciət etmiş, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verildiyindən komissiya 2015-ci il noyabrın 16-da müraciətin geri qaytarılması barədə 33/98 saylı qərar qəbul etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Dairə seçki komissiyası müraciətin ərizəçiyə geri qaytarılması barədə düzgün nəticəyə gəldiyindən B.Ə.Əblin müraciəti əsassız hesab edilərək təmin olunmamalı, dairə seçki komissiyasının 16 noyabr 2015-ci il tarixli 33/98 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Bəybala Əlibala oğlu Əbilin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 noyabr 2015-ci il tarixli 187 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 16 noyabr 2015-ci il tarixli 33/98 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |